*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (1) 2023*
*https://doi.org/ 10.46868/atdd.2023.*




*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received :20.07.2023*
*Kabul tarihi |Accepted: 25.07.2023*
*Yayın tarihi |Published : 25.08.2023*



**Nəzmiyə Axundova**

*https://orcid.org/0009-0005-3745-7818*
*Associate Professor of Azerbaijan and World Literature Department, Ganja State University, Republic of Azerbaijan, Candidate of Philological Sciences, Associate Professor, Azerbaijan, naziyma2012@gmail.com*

***Atıf Künyesi | Citation Info***
Axundova, N. (2023). Heydər Əliyev Siyasi İrsi Kontekstində Tarixin Ədəbiyyatla Bağlılığı Məsələsi. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 331-340.

# Heydər Əliyev Siyasi İrsi Kontekstində Tarixin Ədəbiyyatla Bağlılığı Məsələsi

***Xülasə***

*Dünyanın Böyük Fikir Adamlarından Biri, Şöhrətli Siyasətçi Və İctimai Xadim, Filosof Və Mütəfəkkir, Heydər Əliyev Özünün Çoxcəhətli Fəaliyyətində Tarix,Ədəbiyyat Və Mədəniyyət Məsələlərinə Də Xüsusi Önəm Verirdi.Heydər Əliyev Ədəbiyyatın Bədii-Fəlsəfi Rolunu Yüksək Qiymətləndirir, Onun Xalqa Mənəvi-Psixoloji Təsir İmkanlarından Dövlət İdarəçiliyində Bacarıqla İstifadə Edirdi. Heydər Əliyev Ədəbiyyata Milli Özünüdərk, Milli Oyanış Vasitəsi Kimi Baxırdı. Həqiqətən Də Xalqımızın Tarixi Taleyi Bütün Dövrlərdə Ən Aydın, Parlaq Şəkildə Bədii Ədəbiyyatda, Söz Sənətimizdə Öz Əksini Tapmışdır. Gələcək Nəsillər Xalqımızın Hansı İctimai-Tarixi Mərhələlər,*

*Hansı Dövlətçilik Formaları Keçirdiyini, Qələbələrimizi Və Məğlubiyyətlərimizi Məhz Bədii Ədəbiyyatımızda Görə Bilərlər. Söz Sənətimiz Həm Də Bizim Təfəkkür Tərzimizi, Fəlsəfi Baxışlarımızı, Əxlaqi Dəyərlərimizi, Dünyagörüşümüzü Əks Etdirir. Heydər Əliyev Ədəbiyyat Haqqında Fikirlərini Həm Ümumən Ədəbi-Tarixi Epoxalar, Həm Konkret Əsərlər, Daha Çox İsə Ədəbiyyat Tarixində İz Qoymuş Şəxsiyyətlərin Timsalında Söyləmişdir. Bu Baxımdan Onun «Kitabi-Dədə Qorqud», «Manas», Məhəmməd Füzuli, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Səməd Vurğun Və S. Haqqında Fikirləri Onun Ədəbiyyat Konsepsiyasının Əsasında Dayanır. 2000-Ci İldə Möhtəşəm Eposumuz «Kitabi-Dədə Qorqud»Un 1300 İllik Yubileyinin Yunesko Xətti İlə Dünyada Keçirilməsinə Nail Olması Heydər Əliyevin Böyük Xidməti İdi. O Ümumən Ədəbi İrsə Tarixilik Kontekstində Yanaşırdı. Heydər Əliyev "Kitabi-Dədə Qorqud" Eposunu "Xalq Kitabı", "Etika Kitabı, Əxlaq Kodeksimiz" Adlandırırdı. Bütün Bu Cəhətlərə İstinadən Də O Dastanın 1300 İlliyini Dünya Səviyyəsində Keçirdi, Bununla Da Azərbaycan Xalqının Qədimliyini, Türk Birliyinin Əbədiliyini Nümayiş Etdirməyə Nail Oldu.*

***Açar Sözlər**:Tarix, İctimai, Əxlaqi,Bədii-Fəlsəfi, Ədəbiyyat*

# The Problem of Connection Between History and Literature in the Context of the Political Heritage of Heydar Aliyev

***Abstract***

*One Of The Great Thinkers Of The World, Famous Politician And Public Figure, Philosopher And Thinker, Heydar Aliyev Gave Special İmportance To İssues Of History, Literature And Culture İn His Multifaceted Activities. Heydar Aliyev Highly Valued The Artistic And Philosophical Role Of Literature, And Skillfully Used İts Possibilities Of Spiritual And Psychological İmpact On The People İn State Administration. Heydar Aliyev Saw Literature As A Means Of National Self-Awareness And National Awakening. Indeed, The Historical Destiny Of Our Nation Has Been Reflected İn The Most Clear And Brilliant Way İn Our Literary Literature And Speech. Future Generations Can See The Social And Historical Stages Of Our Nation, The Forms Of Statehood, Our Victories And Defeats, Precisely İn Our Fiction. Our Art Of Words Also Reflects Our Way Of Thinking, Our Philosophical Views, Our Moral Values, Our Worldview. Heydar Aliyev Expressed His Views On Literature Both İn Terms Of Literary And Historical Eras İn General, As Well As Specific Works, And More İmportantly, Personalities Who Left A Mark İn The History Of Literature. In This Regard, His İdeas About "Kitabi-Dade Gorgud", "Manas", Muhammad Fuzuli, Jalil Mammadguluzade, Uzeyir Hajibeyli, 20th Century Literature, Huseyn Javid, Samad Vurgun, Etc. Are The Basis of His Concept of Literature. In 2000, The 1300th Anniversary of Our Great Epic "Kitabi-Dada Gorgud" Was Held İn The World Under Unesco's Guidelines, İt Was Heydar Aliyev's Great Service. He Generally Approached The Literary Heritage İn The Context Of Historicity. Heydar Aliyev Called The Epic "Kitabi-Dada Gorgud" A "People's Book", "A Book Of Ethics, Our Moral Code". With Reference To All These Aspects, He*

*Celebrated The 1300th Anniversary Of That Epic At The World Level, And Thereby Succeeded İn Demonstrating The Antiquity Of The Azerbaijani People And The Eternity Of Turkish Unity.*

***Keywords:*** *History, Social, Moral, Artistic-Philosophical, Literature*

## Giriş

Dünyanın böyük fikir adamlarından biri, şöhrətli siyasətçi və ictimai xadim, Heydər Əliyev özünün çoxcəhətli fəaliyyətində tarix, ədəbiyyat və mədəniyyət məsələlərinə də xüsusi önəm verirdi. Qədim və böyük bir ədəbiyyata malik xalqın oğlu olan Heydər Əliyev ədəbiyyatın bədii-fəlsəfi rolunu yüksək qiymətləndirir, onun xalqa mənəvi-psixoloji təsir imkanlarından dövlət idarəçiliyində bacarıqla istifadə edirdi. Heydər Əliyev ədəbiyyata milli özünüdərk, milli oyanış vasitəsi kimi baxırdı. Həqiqətən də xalqımızın tarixi taleyi bütün dövrlərdə ən aydın, parlaq şəkildə bədii ədəbiyyatda, söz sənətimizdə öz əksini tapmışdır. Gələcək nəsillər xalqımızın hansı ictimai-tarixi mərhələlər, hansı dövlətçilik formaları keçirdiyini, qələbələrimizi və məğlubiyyətlərimizi məhz bədii ədəbiyyatımızda görə bilərlər. Söz sənətimiz həm də bizim təfəkkür tərzimizi, fəlsəfi baxışlarımızı, əxlaqi dəyərlərimizi, dünyagörüşümüzü əks etdirir.

Müasirlik həmişə tarixiliklə vəhdətdə olmuşdur. Keçmişin, tarixi hadisələrin təsviri sənətkar üçün müasir dövrün suallarına tarixdə cavab axtarmaq, bununla da keçmişlə bu günün qırılmaz bağlılığını sübut etmək həqiqətindən doğmuşdur. Azərbaycan ədəbiyyatında tarixi mövzuda yazılan əsərlərin çoxu müasirliklə tarixiliyin qoşa qanad kimi bir-birilə necə vəhdətdə olduğunu sübut etdi.

Heydər Əliyev tarixiliyin müasirliyini, müasirliyin tarixiliyini, əsrlər və nəsillər arasındakı tarixi körpülərin varlığını, mənəvi mövcudluğunu əks etdirən əsərlərə xüsusi diqqət göstərirdi.Ulu Öndər Bəxtiyar Vahabzadənin tarixi mövzuda yazdığı “Özümüzü kəsən qılınc” pyesi haqqında “....Belə bir fakta diqqəti cəlb edirdi ki, uzun müddət bizdə rəsmi ideologiya tarixi köklərimizin qədim türk tarixinə,türk millətinə mənsubluğundan danışmağa yasaq qoymuşdur.. .Bu cür yasaq və qadağalara məhəl qoymayan dahi H. Cavidə pantürkist damğası vurularaq o həbs edilmiş,Sibirin şaxtasında həlak olmuşdur.Bu kədərli faktlardan çıxış edən Ümummilli lider,B.Vahabzadənin əsərini cənətkar cəsarətinin qiymətli nümunəsi hesab edir” (Kitabi Dədə Qorqud Ensiklopediyası, 2000).

Keçən əsrin altmışıncı illəri həm dünyada, həm SSRİ adlanan böyük bir ərazidə, həm də Azərbaycanda çox mühüm ictimai-siyasi hadisələrlə tarixə yazıldı. Əslində Stalinin şəxsiyyətə pərəstiş kultu aradan qaldırıldıqdan sonra SSRİ-də demokratik əhval-ruhiyyə güclənməyə başlamışdı. Təbii ki, dünyada və ölkədə baş verən bu ictimai-siyasi proseslər söz sənətinə də təsirsiz qalmadı. Artıq əllinci illərin ortalarından başlayaraq istər SSRİ-nin ayrı-

ayrı respublikalarında, istərsə də Azərbaycanda dövrün, zamanın dəyişilən ritminə uyğun olaraq bədii söz sənəti də yeniləşməyə, əvvəlki stereotiplərdən xilas olmağa başladı. Bu yeniləşməni, keyfiyyət dəyişmələrini, ədəbiyyatın bütün janrlarında görmək mümkün idi. Bu keyfiyyət dəyişmələrindən biri də tarixi mövzularda əsərlərin yazılmasına marağın artması idi.

Çıxışlarının birində Heydər Əliyev qeyd edirdi: "Tarixin bir-birinə qovuşdurduğu əsrlər bir çox xalqların oğul və qızlarını qızğın məhəbbətlə tərənnüm edən Nizami dühasının ölməz əsərlərini, Füzulinin insanpərvərlik və xeyirxahlıq dolu misralarını, Nəsiminin fəlsəfi fikirlərlə zəngin lirikasını, Xaqaninin məhəbbət və iztirab tərənnüm edən poemalarını, Vidadi və Vaqifin xalq yaradıcılığı çeşməsindən qidalanan şeirlərini bizə gətirib çatdırmışdır. Tarix tələbkar ittihamçıdır. Hökmdarlar, saray əyanları, zülmkarlar unudulub getmişlər. Azərbaycanın böyük mütəfəkkir və humanist şairlərinin təravətdən düşməyən misraları isə bu gün də öz hikməti və insanpərvərlik ruhu ilə dünyanı heyran qoyur. Onlar xalqın azadlığı və səadəti haqqında öz dərin fikirlərini və sönməz arzularını əsrlərdən, nadanlıq, dini fanatizm, milli əsarət və ictimai ədalətsizlik zülmətindən keçirirək nəsillərə bəxş etmişlər" (Heydər Əliyev. Ədəbiyyatımızın Yüksək Borcu və Amalı, 1999). Klassik irsimzin tarixi, bədii-fəlsəfi mahiyyəti haqqında bu qeydlər hər bir sənətkar haqqında böyük tədqiqat istiqamətini əks etdirir. İrsə belə baxışın üfüqləri olduqca geniş və sanballıdır.

Heydər Əliyev "Kitabi-Dədə Qorqud", "Manas", Məhəmməd Füzuli, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli və b. haqqında dəyərli fikirlər söyləmişdir. Onun ədəbiyyat haqqında fikirlərini həm ümumən ədəbi-tarixi epoxalar, həm konkret əsərlər, daha çox isə ədəbiyyat tarixində iz qoymuş şəxsiyyətlərin timsalında, XX əsr ədəbiyyatı, Hüseyn Cavid, Səməd Vurğun və s. haqqında fikirləri dövlətimizin ədəbiyyat konsepsiyasının əsasında dayanır.

2000-ci ildə möhtəşəm eposumuz «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyinin YUNESKO xətti ilə dünyada keçirilməsinə nail olması Heydər Əliyevin böyük xidməti idi. O,ümumən ədəbi irsə tarixilik nöqteyi-nəzərdən yanaşaraq qeyd edirdi: "Müstəqil dövlətmiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddət aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir"

(Kitabi Dədə Qorqud Əsil və Sadələşdirilmiş Mətnlər, 2004). Klassik bədii (və elmi-nəzəri-N.A.) irsə belə münasibət tarixi-metodoloji baxımdan olduqca düzgün və perspektivlidir.

Digər olduqca vacib bir cəhəti xüsusilə qeyd etmək istərdik. Belə ki, Heydər Əliyev irsə münasibətin mahiyyətini gələcəklə bağlayır, onun qənaətləri gənc nəslə ünvanlanır. Gələcək nəsillərin hansı irsin varisi olmalarını bilməsi önəmlidir. Heydər Əliyev «Kitabi-Dədə Qorqud» eposunu «xalq kitabı», «etika kitabı, əxlaq kodeksimiz» adlandırırdı. Bütün bu cəhətlərə istinadən də o dastanın 1300 illiyini dünya səviyyəsində keçirilməsinə nail oldu. Bununla da Azərbaycan xalqının qədimliyini, türk birliyinin əbədiliyini nümayiş etdirməyə müvəffəq oldu.

‘’Dastanın öyrənilməsi türkcəni yaxşı bilən,İstanbulda səfir kimi yaşamış alman şərqşünası H. Ditsin 1815-ci ildə Drezden kitabxanasında XV əsrdə yazıya alınmış əlyazmasını aşkar etməsi ilə başlanır (Azərbaycan Ədəbiyyatı Tarixi, 2004). Dünya mədəniyyəti xəzinəsində əvəzolunmaz abidə kimi tanınan “Kitabi – Dədə Qorqud” dastanları elm aləminə bəlli olduğu vaxtdan bu günə qədər tədqiq olunur.Azərbaycanda bu möhtəşəm dastan haqqında ilk məqaləni 1938-ci ildə ədəbiyyatşünas və folklorşünas alim kimi tanıan Həmid Araslı yazmış və ömrünün sonuna kimi təkrar-təkrar (1939,1962,1977) nəşr etdirmiş və dastanı dəyərləndirən ön söz yazmışdı. Dastanın orta və ali məktəb dərsliklərinə salınması da Həmid Araslının adı ilə bağlıdır.Azərbaycan türklərinin türk kimliyindən məhrum edilməsi yolunda olan ciddi qadağalar “Kitabi Dədə Qorqud”un yolunu bağlaya bilmədi.

Görkəmli türk folklorşünası professor Osman Fikri Sərtqaya Dünya qorqudşünaslarının birinci kolleqiumunun Bakıda keçirilməsi (2-6 iyun 1998-N.A.) haqqında müxbirin sualına cavabında demişdi: ‘’Əvvəla Azərbaycan Qorqud coğrafiyasının əbədi paytaxtıdır. İkincisi, doğma abidəni doğma ocaqda alışdrmaq yerinə düşür.Boyların dili,sintaksisi bu günkü azərbaycanlıların danışığında dipdiridir.Kəlmələrinizi eşitdikcə adam səksənir,Qorqud atanın sirli-soraqlı aləminə qovuşur. ‘’Kitabi Dədə Qorqud” Türkdilli xalqların qədim tartixini, mədəniyyətini,qəhrəmanlıq keçmişini ,millii və mənəvi varlığlığını bu günümüzə çatdıran, gələcək nəsillər üçün miras sayılan ölməz dastandır”.

Heydər Əliyev klassiklərin yubileylərini dünya miqyasında keçirməkdə dəqiq fəlsəfi və siyasi məqsədlər güdürdü.O,dahilərin tarixi nüfuzundan istifadə edərək müasirliyi yaradır, müstəqil Azərbaycanı dünyaya tanıtmaq üçün istifadə edirdi.Orta çağlar dünya şeirinin zirvəsi olan dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyinin dünya miqyasında keçirilməsi bu baxımdan misilsiz hadisə idi. Dahi şairin yubileyinin keçirilməsi onun

Azərbaycan xalqı qarşısında və bütün türk xalqları, dünya mədəniyyəti qarşısındakı xidmətlərinə verilən qiymət idi.

Klassik sənətkara verilən bu qiymət böyük tarixi-siyasi və fəlsəfi imkanlara malikdir. Fikrimizcə, Heydər Əliyevin «Kitabi-Dədə Qorqud»dan dahi Füzuliyə, Türk epos təfəkküründən Orta çağlar ədəbiyyatına yönəlmiş baxışlarında dərin bir düşüncə tərzi hakimdir. Bu düşüncə – VI-XVI əsrlərə türkün daha bir eposu "səhraların odisseyası" (Çokan Vəlixanov-N.A.) olan "Manas" haqqında dahi şəxsiyyətin mülahizələri daxildir: "Manas" qırğız xalqının böyük mədəni və mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk dünyasının, türkdilli xalqların, İslam dünyasının böyük mənəvi sərvətidir. "Manas" eyni zamanda, Azərbaycan xalqına məxsusdur. Azərbaycan xalqının da mənəvi mədəni sərvətidir. Manas bizim hamımızın, xalqlarımızın hamısının ulu babasıdır" (Heydər Əliyev. Ədəbiyyatımızın, 1999).

Heydər Əliyevin ədəbiyyat təlimində XX əsr bir ədəbi-tarixi epoxa kimi xüsusi yer tutur. Dövlət tiplərinin və siyasi-ideoloji rejimlərin bir neçə dəfə dəyişdiyi bu qalmaqallı əsrdə Azərbaycan ədəbiyyatı və ictimai fikri vüsətlə inkişaf edib. Milli mətbuatın vüsət aldığı, Şərqdə ilk demokratik dövlətin yaranması ilə sonuçlanan bu əsrin əvvəllərində azərbaycançılıq və türkçülük istiqamətlərində böyük məfkurə tartmışmaları getmişdir. Heydər Əliyev bu əsrin oğlu idi. O, II Cahan savaşından sonra öz əsrinin ictimai və ədəbi-tarixi mühiti ilə bağlı olmuşdur. Bu əsr isə nəhəng ədəbi-tarixi şəxsiyyətləri ilə bütün türk-islam dünyasını, habelə Avropanı heyran qoymuşdu: Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun… Bu şəxsiyyətlər içərisində o, Mirzə Cəlilə, Üzeyir Hacıbəyliyə, Hüseyn Cavidə və Səməd Vurğuna xüsusi önəm verirdi.

Heydər Əliyev Mirzə Cəlilin 125 illik yubileyindəki nitqində ədibin ədəbi -tarixi mövqeyini belə səciyyələndirirdi: "Cəlil Məmmədquluzadə Azərbaycanda görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filolosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir…"(Heydər Əliyev. Ədəbiyyatımızın, 1999). Heydər Əliyev onu "Azərbaycanın milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamış" (Heydər Əliyev. Ədəbiyyatımızın, 1999). misilsiz bir şəxsiyyət kimi qiymətləndirir. "Ölülər" haqqında "dünya ədəbiyyatında buna bərabər, buna bənzər ikinci əsər tapmaq mümkün deyildir" – deyir. Heydər Əliyev Mirzə Cəlilin şəxsiyyətini, cəsarətini, dühasını, istedad və

fədakarlığını “Molla Nəsrəddin”in banisi kimi rolunu,bütövlükdə realist-satirik yaradıcılığını yüksək qiymətləndirir.

Heydər Əliyevin böyük romantik şair, Azərbaycan ədəbiyyatında mənzum dramaturgiyanın banisi, böyük filosof Hüseyn Cavid yaradıcılığına münasibətini bir tale fədakarlığı hesab etmək olar. Bu böyük insanın, dövlət başçısı və tarixi şəxsiyyətin misilsiz səyləri sayəsində 1937-ci ildə həbs olunub Sibirə sürgün edilmiş və orada faciəli surətdə vəfat etmiş Hüseyn Cavidin nəşi Azərbaycana gətirildi və Naxçıvanda dəfn olundu. Məhz onun təşəbbüsü ilə bu gün ulu Naxçıvanda Cavidlər ailəsinin uyuduğu müqəddəs bir məqbərə ucalır.

Heydər Əliyev ədəbiyyatımızın Nizami, Xaqani, Nəsimi, Füzuli, Mirzə Fətəli Axundzadə, Mirzə Cəlil və s. kimi klassikləri barəsində dəyərli fikirlər söyləmişdir.Məhz onun təşəbbüsü ilə Böyük hürufi şairi İmadəddin Nəsiminin 1973-cü ildə 600 illik yubileyi keçirildi. Bu illərdə Qabilin «Nəsimi» poeması, İsa Hüseynovun «Məhşər» romanı yazıldı. «Nəsimi» filmi çəkildi.

XX əsrin sənətkarları içərisində Heydər Əliyevin xüsusi önəm verdiyi şəxsiyyətlərdən biri də Səməd Vurğun idi. Heydər Əliyev S.Vurğunu heç kimə bərabər tutmur, ona fərdi, əlahiddə tərzdə, ilahi ilham, istedad sahibi kimi yanaşırdı: “...Gənc vaxtlarımdan Səməd Vurğunun şeirlərini, sevərək, onların təsiri altında həm təhsil almışam, həm formalaşmışam. ... Səməd Vurğun öz dövrünün, zəmanəsinin mühitində, çərçivəsində yazıb yaradıb və Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstəribdir. Azərbaycan ədəbiyyatının və mədəniyyətini, dünya ədəbiyyatını zənginləşdiribdir... Səməd Vurğunun yaradıcılığı dəryadır... Səməd Vurğun böyük şairdir. Şərq aləmində şair həmişə ən böyük hörmətə layiq olubdur. Səməd Vurğun isə öz dövrünün şairlərinin şairi olubdur” (Heydər Əliyev. Ədəbiyyatımızın, 1999). Heydər Əliyev S.Vurğunun Azərbaycan şerinə poetik yeniliklər gətirən, Azərbaycan dilini zənginləşdirən, inkişaf etdirən qüdrətli sənətkar kimi dəyərləndirir, “Vaqif” pyesi XX əsr mədəniyyət, ədəbiyyat tariximizdə ən görkəmli yer tutubdur” (Heydər Əliyev. Ədəbiyyatımızın, 1999). qənaətinə gəlirdi.

Heydər Əliyev ədəbiyyatımızın bütün dövrlərinə xüsusi diqqət yetirir. «Kitabi-Dədə Qorqud»dan tutmuş XX əsrin önlərinə – Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyli, Əli bəy Hüseynzadə, Həriman Nərimanova qədərki dövrdə fəaliyyət göstərmiş sənətkarları - Xaqani, Nizami, Məhsəti, Nəsimi, Füzuli, Vaqif kimi klassikləri dərindən və hərtərəfli təhlil edib dəyərləndirirdi.

Heydər Əliyevin ədəbiyyat təlimində XX əsr bir ədəbi-tarixi epoxa kimi xüsusi yer tutur. Ədəbiyyat və tarix problemindən bəhs edərkən Heydər Əliyev bütün sərtliyi ilə deyirdi

ki, tariximiz bədii ədəbiyyatda kifayət qədər dolğun şəkildə öz əksini tapmayıb. O,yazıçılardan tələb edirdi ki, ədəbiyyatımızı tarixi müasirliyin tələbləri ilə xalq həyatı müstəvisində əks etdirsinlər. Axı müasirlik həmişə tarixiliklə vəhdətdə olmuşdur.Keçmişin, tarixi hadisələrin təsviri sənətkar üçün müasir dövrün suallarına tarixdə cavab axtarmaq, bununla da keçmişlə bu günün qırılmaz bağlılığını sübut etmək həqiqətindən doğmuşdur. Heydər Əliyevin çağdaş yazarlar qarşısında qoyduğu bu tələblər 90-cı illərdən etibarən ədəbiyyatımızda bütün janrlarda tarixi dövrləri əks etdirən əsərlərin meydana gəlməsi ilə nəticələndi. Məmməd Orucun "Köçürülmə", Əli Əmirlinin "Meydan", Arif Abdullazadənin "Qanlı yaddaş", Sabir Əhmədlinin "Axirət sevdası" və "Kütlə", Afaq Məsudun "Azadlıq", Aqil Abbasın "Dolu"romanları 90-cı illər Azərbaycan gerçəkliyinin inikasıdır.

Azərbaycan romanı yarandığı tarixdən bəri Azərbaycan gerçəkliyinin bədii tarixinə çevrilmişdir. Romanlarımızda ən qədim dövrlərdən müasir günümüzəcən xalqımızın keçdiyi böyük tarixi yolun ayrı-ayrı mərhələləri, azadlıq və istiqlal mücadilələri, yadelli işğalçılara qarşı ədalətli müharibələri, özünəməxsus adət və ənənələri, estetik və etik dünyagörüşü əks olunmuşdur.Romanı başqa janrlardan fərqləndirən odur ki, bu janrda dünya, cəmiyyət, həyat, insan münasibətləri bütöv və tam, dolğun və əhatəli görünür.

Xalq yazıçısı Anarın böyük türk şairi, dünya poeziyasının korifeylərindən olan Nazim Hikmətin ömür yolundan bəhs edən «Kərəm kimi» sənədli romanını da ümumilli liderin yazarlar qarşısında qoyduğu tələblərdən yarandı. Sənədli romanın bədii romandan fərqli xüsusiyyətləri var və Anar istedadlı bir yazıçı kimi bu tipli romanın poetikasına yaxşı bələddir. Vaxtilə o, Rəsul Rza və Nigar Rəfibəyliyə həsr etdiyi «Sizsiz» romanını da yazmışdı. Anarın hər iki romanına xas olan bədii təsvirlərlə bir sırada sənədli faktlara istinadən verdiyi şərhlər, keçmişlə bu günün qarşılaşdırılması fonunda hadisənin mahiyyətini, obrazın xarakterini daha canlı və koloritli vermək ustalığı da bunu sübut edir. Əsəri oxuduqca Nazim Hikmət həm bir insan kimi bütün gözəl keyfiyyətləri və faciəsi ilə, həm korifey bir sənətkar, həm də ictimai-siyasi mövqeyi ilə gözlərimiz qarşısında canlanır.

Məhz Heydər Əliyevin tarixi hadisələrə həssas yanaşmasının nəticəsi olaraq Xalq hərəkatı mövzusu bir çox nəsr əsərlərində də öz inikasını tapdı və bu əsərlərdən biri də S.Əhmədlinin "Kütlə" romanı idi. Müəllifin "Axirət sevdası" romanı isə 90-cı illər Azərbaycan gerçəkliyini bədii sözün işığına çıxaran ən dolğun bir əsər kimi diqqəti cəlb edir. Qarabağ müharibəsi zamanı yazıçının oğlu Məhəmməd ali təhsilini yarımçıq qoyub könüllü olaraq cəbhəyə getmiş və döyüşlərin birində həlak olmuşdur. Bu itki ata ürəyində qövr etmiş və "Axirət sevdası" romanının yazılmasına səbəb olmuşdur.Roman bir ata iztirablarını əks etdirsə də (süjet əsasən bunun üzərində qurulur-N.A.), mövzu əsasən bu axarda davam etsə

də, lakin əsərdə Qarabağ müharibəsi, bu savaşla bağlı müxtəlif fikirlər, ələlxüsus da İnsan və Müharibə problemi də öz əksini tapmışdır. Romanda həm də ölüm və varlıq, gerçək həyat və axirət haqqında düşüncələr də diqqəti cəlb edir. Bunlar romana fəlsəfi bir ahəng bəxş edir və əsərin məna yükünü artırır.

Məmməd Orucun "Köçürülmə" romanında təsvir olunan hadisələr 1919-1921 və 1948-1951-ci illərdə cərəyan etsə də, xalqımızın başına gətirilən bəlaların kökünü, mənbəyini və səbəblərini açıqlamaq mənasında mühüm əhəmiyyət daşıyır.RomandaVedibasarlı yurddaşlarımızın bir neçə gün ərzində vaqonlara doldurulub Azərbaycanın aran rayonlarından birinə-Beyləqana köçürülməsi, köçürülənlərin necə maddi və mənəvi məhrumiyyətlərə düçar olması təsvir edilir. Ancaq o zaman vedililərin arxası, mənəvi dayağı olan Abbasqulu bəy Şadlinski əhalinin İrana köçməsinə yardımçı olmuş, iki ildən sonra yenidən onların öz doğma yurdlarına qayıtmasına kömək etmişdi. 1948-1951-ci illərdə isə artıq vəziyyət dəyişmişdi, vedililərin arxası, köməyi yox idi. Daşnaklar rus ordusunun köməyilə Ermənistanda yaşayan soydaşlarımızı öz ata-baba yurdlarından didərgin saldılar, "köçürülmə" siyasəti böyük maddi və mənəvi fəlakətlərə yol açdı.

**Nəticə**

Heydər Əliyevin tarixin ədəbiyyatla bağlılığı haqqında fikirləri onun ictimai-siyasi və fəlsəfi görüşlərinin tərkib hissəsi olan mükəmməl bir təlimdir.Bu təlimin həyata keçiriməsi ulu öndərin müqəddəs amalı idi.Yazıçıların ciddi nəzarət altında saxlandığı Sovet dönəmdə-1958-ci ildə tarixi mövzuda yazdığı məşhur "Gülüstan" poemasına ğörə türk dünyasının böyük şairi Bəxtiyar Vahabzadənin həbs cəzasından azad edilməsinə nail olmaq ulu öndərin öz amalına sadiq olmasının nümunəsidir və belə nümunələrin sayı çoxdu.Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra iqtidara gələn Heydər Əliyev klassik irsimizə, klassik ədəbiyyatımıza və onun nümayəndələrinə böyük diqqət və qayğı göstərdi, bu ədəbiyyatın ictimai inkişafda, yeni insan tərbiyəsində oynadığı rolu yüksək qiymətləndirərək özü də klassiklərin cərgəsinə daxil oldu, onlar kimi ölməzlik qazandı.

Heydər Əliyev dahilərin tarixi nüfuzundan istifadə edərək müasirliyi yaradır, müstəqil Azərbaycanı dünyaya tanıtmaq üçün istifadə edirdi. Ümummilli lider klassiklərin yubileylərini dünya miqyasında keçirməkdə dəqiq fəlsəfi və siyasi məqsədlər güdürdü. Bu məqsədləri o, belə izah edirdi: «Tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən, onların xalq qarşısında, millət qarşısında xidmətlərinə verilən qiymətdir. Bu, lazımdır, özü də mütləq lazımdır. Digər tərəfdən isə, belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir. Eyni zamanda bu yubileylər xalqın millətin daha da yüksəldilməsinə xidmət edir». (Heydər Əliyev. Ədəbiyyatımızın, 1999).

Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra yenidən iqtidara gələn Heydər Əliyev klassik irsimizə, klassik ədəbiyyatımıza və onun nümayəndələrinə böyük diqqət və qayğı göstərdi və ədəbiyyatın ictimai inkişafında yeni insan tərbiyəsində oynadığı rolu yüksək qiymətləndirərək özü də klassiklərin cərgəsinə daxil oldu, onlar kimi ölməzlik qazandı.

**Ədəbiyyat**

*Azərbaycan Ədəbiyyatı Tarixi.* (2004). (6 Cilddə). (1.Cild). Elm.

Anar. (2020). *Yaşamaq Haqqı.* Qanun Nəşriyyatı.

*Heydər Əliyev. Ədəbiyyatımızın Yüksək Borcu və Amalı.* (1999). Ozan.

*Kitabi Dədə Qorqud Ensiklopediyası*. (I. Cild.), (2000).

Kitabi Dədə Qorqud. Əsil və Sadələşdirilmiş Mətnlər (2004). Öndər Nəşriyyatı.

https://Dq.Mia.Gov.Az/Upload/2.Pdf